Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Gözəllik və bilik aşiqi Nəvvab

**Mir Möhsün Nəvvabın 185 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Gözəllik və bilik aşiqi Nəvvab:** Mir Möhsün Nəvvabın 185 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 21 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Klassik sənətkarların bədii irsinin qorunub saxlanmasında təzkirə müəlliflərinin böyük rolu və zəhməti olmuşdur. Orta əsrlərdə Məhəmməd Ovfi, Dövlət şah Səmərqəndi, Əmir Əhməd Razi, Lütvəli bəy Azər, Sam Mirzə sonrakı dövrlərdə Rzaqulu xan Hidayət, Hüseyn əfəndi Qayıbov, Seyid Əzim Şirvani, Məhəmmədağa Müctəhidzadə, Məhəmmədəli Tərbiyyət və başqaları ağır zəhmətə qatlaşaraq, sələflərinin və müasirlərinin əsərlərini toplayıb, özlərindən sonrakı nəsillərə çatdırmışlar.

Bu işi XIX əsrin sonlarında uğurla davam etdirən görkəmli ziyalılardan biri də Mir Möhsün Nəvvabdır. Azərbaycan mədəniyyəti tarixində görkəmli şair, xəttat, rəssam, musiqişünas, pedaqoq, nacim kimi məşhur olan bu ensiklopedik zəka sahibi həm də böyük filoloq-söz sərrafı olmuşdur. XIX əsrin 70-ci illərində Şuşada fəaliyyətə başlayan "Məclisi-Fərəmuşan" ədəbi məclisinə başçılıq edən Nəvvab eyni zamanda Qarabağ şairlərinin əsərlərini toplayaraq, sanballı bir kitab-təzkirə düzəltmişdir. Mir Möhsün Nəvvabı ilk olaraq musiqişünas, Azərbaycan dilində yazılmış "Vüzuhül-ərqam" risaləsinin müəllifi kimi tanıyırlar. Ən yaxşı klassik ənənələr ruhunda qələmə alınmış həmin əsər Şərqdə bu qəbildən yaradılmış son risalələrdən biridir. Azərbaycanda isə Nəvvab sonuncu kimyagərlərdən, münəccimlərdən və köhnə məktəbə mənsub rəssamlardandır. Onun yaratdığı qiymətli ədəbi miras ədəbiyyatımızın əmlakı, Nəvvabın şöhrəti isə xalqımızın qürurudur.

Bu il Mir Möhsün Nəvvabın 185 illik yubileyidir. Şairin yubileyi münasibətilə işlədiyimiz bu vəsait iki hissədən ibarətdir. Birinci hissədə şairin həyat və yaradıcılığından, ikinci hissədə isə onun yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Mir Möhsün Hacı Mirəhməd oğlu Nəvvab 1833-cü ildə Şuşada anadan olmuşdur. O, Hacı Seyid Əhmədin ailəsində doğulmuş və bütün ömrü boyu doğma şəhərindən kənara çıxmamışdır. İlk təhsilini ruhani məktəbində alan Nəvvab ərəb, fars, türk dillərini mükəmməl mənimsəmiş, sonra isə Abbas Sarıcalı mədrəsəsində astronomiya, kimya, riyaziyyat və digər elmlərin əsaslarına yiyələnmişdir. Nəvvab öz dövrünün qabaqcıl elm və ədəbi-bədii yaradıcılığın müxtəlif sahələrində geniş fəaliyyət göstərən ziyalılarından olmaqla, həm rəssam və xəttat, nəqqaş, həm də şair, astronom, ədəbiyyatşünas, dövrünün maarifçisi, alimi, tarixçi və sənətkarı, musiqişünas azərbaycanlı alimi olmuşdur.

Uzun ömrü boyunca Nəvvab Şuşanın mədəni və ictimai həyatında fəal iştirak edib. Şeirlər yazmış, özünün açdığı mətbəədə kitablar nəşr etmiş, məktəblərdə dərs demiş, elm və incəsənətin müxtəlif sahələrinə həsr olunmuş iyirmidən artıq kitab yazmış, “Məclisi-fəramuşan” adlı ədəbi, “Məclisi-xanəndə” adlı musiqi məclisləri qurmuşdur. Şairlərdən Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Eyyub Baqi, Xan Qarabaği, Abdulla Həsən Şahid, ifaçı və müğənnilərdən Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski və başqaları həmin məclislərin üzvləri idilər. Bu cəmiyyətlər Azərbaycandakı digər eyni məqsədli məclislər Şuşadakı “Məclisi-üns”, Şamaxıdakı “Beytüs-Səfa”, Bakıdakı “Məcməüş-şüəra” ilə sıx əlaqələr saxlayırdı.

Bir rəssam kimi Nəvvabın yaradıcılığının əsasını öz evinin divarlarında çəkdiyi müxtəlif ornament kompozisiyaları təşkil edir. Mir Möhsün Nəvvabın Azərbaycanda kitab sənətinin inkişafındakı xidmətləri daha geniş və əhəmiyyətli olmuşdur. O, həm rəssam və xəttat, həm də dekorativ sənət ustası kimi kitab

tərtibatı sahəsində hərtərəfli fəaliyyət göstərmişdir. Nəvvab, sözün əsl mənasında, kitab sənətinin universal ustası idi. O, əsərlərini öz dəsti-xətti ilə yazar, özünün kiçik karxanasında daşbasma üsulu (litoqrafiya) ilə çap edər, cildləyib kitab şəklinə salar, bəzi əsərlərinə isə illüstrasiyalar çəkərdi.

Nəvvab kitabların bədii tərtibatı və illüstrasiya sənətinə gənc yaşlarından, öz kitabxanasında olan kitabların rəsmlərini rəngləməklə başlamışdır. 1849-1850-ci il tarixli "Şahnamə" kitabında Xoylu rəssam Mirzə Əliqulunun çəkdiyi illüstrasiyaların Nəvvab tərəfindən işlənmiş nüsxələri isbat edir ki, gənc rəssam hazır şəkilləri sadəcə mexaniki surətdə rəngləmişdir. O, şəkillərin üzərində bədii yaradıcılıq işi aparmış və hər bir illüstrasiyanı təsvir olunan sujetin məzmununa uyğun tərzdə rənglə işləmişdir.

Görkəmli maarifçi, yazıçı, rəssam Mir Möhsün Nəvvabın anadan olmasının 185 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və digər müsabiqələr, ədəbi-bədii gecə keçirilə bilər. Bu dahi şəxsiyyəti sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Dəyərli ədəbi məxəz", "Klassik irsimizdən", "Mir Möhsün Nəvvabın sənət dünyası", "Gözəllik və bilik aşiqi-Nəvvab", "Nəvvabın əsəri-Şuşanın tarixi", "Mir Möhsün Nəvvab dühası" və s.






## Görkəmli şəxsiyyətlər Mir Möhsün Nəvvab haqqında

Mir Möhsün Nəvvab pedaqoji fəaliyyətlə də məşğul olmuş, xalqının maariflənməsi, gənc nəslin sağlam məfkurəyə malik olması, həyatda düzgün mövqe tutması üçün var qüvvəsi ilə çalışmışdır.

**Mehri Məmmədova,**
*filologiya üzrə fəlsəfə doktoru*

Mir Möhsün Nəvvabın yaradıcılığının digər sahələri kimi bədii yaradıcılığı da olduqca rəngarəng və zəngindir. O, klassik şeirin demək olar ki, bütün janrlarında qələmini sınamışdır.

**Əli Məmmədbağıroğlu,**
*filologiya üzrə fəlsəfə doktoru*

Nəvvab 1918-ci ildə Şuşa şəhərində dünyasını dəyişəndə artıq Azərbaycanda və onun hüdudlarından qıraqlarda yaxşı tanınırdı.

**Paşa Kərimov,**
*filologiya elmləri doktoru*

Mir Möhsün Nəvvabın anadan olmasının 185 illik yubileyi ilə əlaqədar olaraq, "Söz sərrafı – Nəvvab" adlı icmal hazırlanması da məqsədəuyğundur. Kompozisiya oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olaraq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra Nəvvab yaradıcılığı haqqında qısa məlumat verir.

**Kitabxanaçı:** Şuşa şəhəri həmişə Azərbaycanın mədəniyyət mərkəzlərindən olub. Məşhur alim, musiqişünas Firudun Şuşinskinin sözlərinə görə, XIX əsrdə bu kiçik şəhərdə 95 şair, 22 musiqişünas, 38 peşəkar müğənni, 16 rəssam, 5 astronom, 18 memar, 16 həkim yaşamışdır. Şəhərdə ona yaxın ədəbi, musiqi və digər cəmiyyətlər, ondan artıq mədrəsə və müxtəlif tipli

məktəb fəaliyyət göstərirdi. Şuşada orta əsrlər elm, incəsənət və mədəniyyət ənənələri Azərbaycanın hər yerindən daha artıq dərəcədə özünə qərar tuta bilib. Zəngin kitabxanalarda xəttatlar kitabların üzünü köçürür, rəssamlar şəhər binalarının divarlarına nəqşlər vurur, kitablara miniatürlər çəkirdilər. Xalça emalatxanalarında sonralar dünyanın ən böyük muzeylərinin bəzəyi olacaq xalçalar toxunurdu. Musiqiçilər Qarabağ muğam məktəbinin adını daim uca tuturdular. XIX əsrin ortalarında Azərbaycanın hər yerində kapitalist münasibətləri cücərən və yeni təfəkkür yaranan bir zamanda orta əsrlərə məxsus elmi biliklər sisteminə sahib ensiklopediyaçı alim Mir Möhsün Nəvvab bu şəhərdə yaşayıb-yaradır. Görkəmli musiqiçi, şair, rəssam, xəttat, münəccim, kimyaçı və riyaziyyatçı olan Mir Möhsünü əsərlərinin məzmunu, səviyyəsi və həcmi etibarilə həqiqətən də orta əsrlərin sonuncu ensiklopedist alimləri dəstəsindən hesab etmək mümkündür.

Mir Möhsünün əsərləri içərisində "Təzkireyi-Nəvvab" toplusu daha artıq maraq doğurur. Burada XIX orta əsrlərdə Qarabağdan çıxmış 100-dən artıq şairin həyat və yaradıcılığı haqqında məlumatlar toplanmışdır. Təzkirə 1913-cü ildə Bakıda kitab şəklində nəşr olunmuşdur.

*I iştirakçı:* Nəvvab riyaziyyat, kimya və astronomiya ilə maraqlanırdı. O, öz evində iki teleskop qoyaraq, kiçik bir rəsədxana və kimya laboratoriyası yaratmışdı. 1899-cu ildə dərslik kimi qələmə aldığı "Kifayətül-ətfal" kitabında o, göy cisimlərinin yerləşməsi və günəş tutulmaları haqda cədvəllər tərtib etmişdir. Alim kimya laboratoriyasında şagirdləri ilə sınaqlar keçirir və orta əsrlərdə yaşamış kimyagərlər tərəfindən verilən nüsxələri yoxlayırdı. Nəsihətnamə əsərində cavanlara verdiyi nəsihətlərin sayı 500-dən artıq idi. Tanınmış pedaqoq və alimin etik görüşləri müəyyən mənada onun "Kifayətül-ətfal, Nurül-Ənvar" və "Pəndnamə" kimi kitablarında da öz əksini

tapmışdı. Qarabağ və bütün Azərbaycan incəsənətinə ən böyük töhfəsini isə Nəvvab heç şübhəsiz, öz bədii yaradıcılığı ilə vermişdi. Bir çox akvarel rəsmləri, kitab miniatürləri və bir neçə bina və məscidə vurduğu naxışlar bizə yadigar qalmışdır.

Mir Möhsün Nəvvabın məşhur musiqi traktatı "Vüzuhül-ərqam" ilk dəfə 1913-cü ildə Bakıda nəşr olunmuşdur. Həmin risaləsində Mir Möhsün ayrı-ayrı muğamların, bəzi dəstgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur. Nəvvab ilk dəfə olaraq, dəstgah terminindən istifadə edir, o vaxt Qarabağda məlum olan altı dəstgahın adını çəkir: Rast, Mahur, Şahnaz, Rahavi, yaxud Rahab, Çahargah və Nəva. Nəvvabın sözlərinə əsasən, ifa olunan dəstgahın tərkibi bir çox hallarda ifaçının zövqündən və qabiliyyətindən asılı olur. Alim həmin əsərində Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğamın adını çəkib. Mir Möhsün bir neçə muğamın mənşəyini və onların adının etimologiyasını araşdırıb. Belə ki, Azərbaycan, Nişapur, Zabuli, Bağdadi, Şirvani, Qacarı, Şah Xətai və başqa muğamların adlarını onların yaranmasında rol oynamış şəxslərlə və yer adları ilə əlaqələndirir. "Rast" muğamını bahar mehi, "Rəhavi"ni yağış damlaları, "Çahargah"ı ildırım çaxışı, "Dügahı" fontan vuran bulaqlarla, "Humayu"nu quşların uçuşu, "Nəva"nı bədbəxt sevgililərin ah-naləsi, "Mahur"u suların şırıltısı, "Şahnaz"ı bülbüllərin cəh-cəhi, "Üşşaq"ı quşların havada süzməsi, "Üzzal"ı meteoritlərin hərəkəti ilə əlaqələndirib.

*II iştirakçı:* Muğamların emosional təsiri haqqında Nəvvab yazır ki, Üşşaq, Busəlik və Nəva şücaət və hünər göstərməyə ruhlandırır, Bozarq, Rahavi, Zəngulə, Zirəfkəndi, Hüseyni kədərli duyğular oyadır. Nəvvab musiqinin müalicəvi

əhəmiyyəti barədə də bir sıra maraqlı fikirlər söyləyirdi. Əsər bu sözlərlə bitir: “Bu risalə Vətən elminin qüdrətini artırmaq məqsədilə yazılmışdır”.

Ömrünün bir neçə onilliyini Nəvvab yaradıcılığının tədqiqinə həsr etmiş musiqişünas Zemfira Səfərova yazır: "Vizuhül-ərqam keçən əsrdə yalnız Azərbaycanda deyil, bütün Şərq ölkələrində muğam ifaçılığının və musiqi incəsənətinin vacib məsələlərindən bəhs edən qiymətli bir musiqi əsəridir". Nəvvab 1918-ci ildə Şuşa şəhərində dünyasını dəyişəndə artıq Azərbaycanda və onun hüdudlarından qıraqlarda yaxşı tanınırdı.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının, Qarabağ ədəbi mühitinin inkişafında özünəməxsus rolu olmuş şəxsiyyətlərdən biri də dövrünün ensiklopedik zəkaya malik ziyalısı, şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi Mir Möhsün Hacı Seyid Əhməd oğlu Nəvvab Ağamirzadə (1833-1916) olmuşdur. Akademik Feyzulla Qasımzadə Şuşa şairlərinin “Məclisi-fəramuşan” adlı ədəbi məclisinin yaradıcısı və rəhbəri Mir Möhsünün xidmətləri barədə yazır: “Məclisin rəhbəri Mir Möhsün ağa Nəvvab köhnə təhsil almasına baxmayaraq, yeniliyə meyil edirdi; mədəni mərkəzlərlə əlaqə saxlayır, məclis üzvlərini dünya hadisələri və mədəni yeniliklərlə tanış etmək üçün Bakıdan “Əkinçi”, Tiflisdən “Ziya”, “Kəşkül” qəzetlərini, Hindistandan fars dilində nəşr olunan “Həblül-mətin” məcmuəsini alırdı”.

Elmin müxtəlif sahələrini kamil bilən Nəvvab 30-dan artıq əsər müəllifidir. Bunların içində “Kəşfül-həqiqə” (3 cilddə), “Bərhül-hüzən”, “500 nəsihət” (“Nəsihətnamə”), “Məzamir”, “Vüzuhül-ərqam”, “Kənzül-mühən”, “Təzkireyi-Nəvvab”, “Şəmsül-hidayə”, “Şərhi-üstürlab”, “Müseyibnamə”, “Nurül-ənvar”, “Ziyaül-ənvar”, “1905-1906-cı illərdə erməni-müsəlman davası” və digər əsərlərin adını çəkmək olar. Azərbaycan ədəbiyyatının öyrənilməsi üçün böyük əhəmiyyəti olan “Təzkireyi-Nəvvab” 1913-cü ildə Bakıda “Orucovlar” mətbəəsində nəşr edilmişdir. Lakin müəllif onu 1891-ci ildən

yazmağa başlamışdır. Təzkirənin daha dolğun, tam nüsxəsi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

Mir Möhsün Nəvvabın poetik irsi əsasən onun Azərbaycan və fars dillərində tərtib etdiyi divanlarında, təzkirəsində toplanmışdır. Şairin 148 səhifədən ibarət farsca divanı 1897-ci ildə, 128 səhifədən ibarət azərbaycanca divanı 1898-ci ildə özünün Şuşadakı şəxsi daşbasma mətbəsində çap edilibdir. Qeyd etmək istərdik ki, şairin ana dilindəki divanı tam əlyazma variantı əsasında 1999-cu ildə "Şuşa" nəşriyyatında nəşr edilmişdir (Nəşrə hazırlayanlar Əli Məmmədbağıroğlu və Arif Ramazanovdur).

*III iştirakçı:* Mir Möhsün Nəvvabın Azərbaycan dilindəki divanında klassik şeirin bir sıra janlarında yazılmış şeirlər-qəzəl, mürəbbe, müxəmməs, müsəddəs, müəşşər, şarpарə, fərdlər, o cümlədən, şivahi xalq ədəbiyyatı üslubunda yazılmış qoşmalar toplanmışdır. Qeyd etmək lazımdır ki, bu divandakı şeirlər klassik divanlara məxsus qaydada düzülməmişdir. Ümumiyyətlə, şeirlərin düzülüşündə heç bir qaydaya riayət olunmamışdır. Əsər dibaçə ilə başlanır. Burada müəllif özü haqqında bioqrafik məlumat, əsəri yazmağa başladığı tarixi və əsərlərinin siyahısını vermişdir.

Mir Möhsün Nəvvabın divanını oxuyarkən onun Azərbaycan klassik poeziyasının görkəmli nümayəndələri, xüsusilə də Füzuli və Vaqif ənənələri ilə sıx surətdə bağlı olduğunu görürük. Şair maraqlı bir üsuldan istifadə etmiş, Füzulinin "Leyli və Məcnun" poemasından iki qəzələ bir qəzəllə nəzirə yazmışdır. Füzulinin "Leyli və Məcnun" poemasında eyni qafiyəli – "Yar rəhm etdi məgər naləvü əfğanimizə" misrası ilə başlanan 7 beytlik və "Küfri-zülfin salalı rəxnələr imanimizə" misrası ilə başlanan 6 beytlik qəzəllərinə Nəvvab:

Qəm qübarı yatıb əzbəs dili-viranəmizə,
Kafər ağlar bizim əhvali-pərişanimizə

– mətləli 17 beytlik nəzirə ilə cavab vermişdir.

Mir Möhsün ağa Füzulinin “Ey məzaqi – canə dövrün şəhdü şəkkər tək ləziz” misrası ilə başlanan 7 beytlik qəzəlinə:

Ey ləbi-ləlin ləbimdə şirü şəkkərtək ləziz,
Şərbəti-abi-dəhanın abi-kövsərtək ləziz

– mətləli 6 beytlik nəzirə yazmışdır.

Nəvvab divanında Füzuli şeirlərinə yazılmış digər nəzirələrə də rast gəlirik. Qarabağ ədəbi mühitinin əksər nümayəndələri kimi, Mir Möhsün də Molla Pənah Vaqif təsirindən kənarda qalmamışdır. Şairin “Yox qəmi ol kimsənin kim, dilbəri dilbər ola” misrası ilə başlanan 6 bəndlik mürəbbesində Vaqifin:

Xublar arığından yarımaq olmaz,
İgidin həmdəmi gərək çağ ola

– misraları ilə başlanan qoşmasının təsiri aydın görünməkdədir.

Nəvvabın bir neçə şeirində, o cümlədən, “Gülşəni-ruyində bimisl bülbüli-şeydayə bax” misrası ilə başlanan qəzəlində (7,s.20) və “İkinci dəfə baş vermiş erməni-müsəlman münaqişəsinə həsr edilmiş şeir” adlı mürəbbesində Vaqifin

Ey Vidadi, gərdişi-dovrani-kəcrəvtarə bax,
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax

– mətləli qəzəlinin də təsiri özünü göstərir.

Vaqif qəzəlində qəddar hökmdarın gecə onu qətlə yetirəcəyini vəd edib, səhər meyidi tapıldığından danışırsa, bu hadisədən ibrət götürülməsini istəyirsə, Nəvvab Qarabağda nahaq qanlar tökmüş ermənilərin cəzalandırılmalarından danışır, bu hadisələri ibrət gözü ilə dəyərləndirir.

Mir Möhsünün şeirlərində Xurşidbanu Natəvan, Seyid Əzim Şirvani və bir sıra digər müasirlərinin əsərlərindən bəhrələndiyini də görürük. Görkəmli ədəbiyyatşünas Əliabbas Müznib “Natəvan Xurşidbanu” adlı kitabında Natəvanın həyat və yaradıcılığına dair məlumatları, əsərlərini, şeirlərinə yazılmış nəzirələri toplamışdır. Burada Mir Möhsün Nəvvabın aşağıdakı beytlərlə başlanan şeirlərinin Xurşidbanunun qəzəllərinə nəzirə olduğu göstərilir:

Əğyarlar ayırdı məni-kuyi-yardan,

Oldum kənar, heyf o gülgun üzardan.

Zindani-qəmdə oldu günüm qarət, ağlaram,
Sevdayi-eşqin ilə çəkib zillət, ağlaram.

Keçdi ahü zar ildə günüm, oldu qəra sənsiz,
Nə lazımdır mənə olsa əgər bu masəva sənsiz.

Aşıq oldum nagəhan bir çuxi-bipərvayə mən,
Saldım axır özümü bir əcəb qovğayə mən.

Fəraqi-yarda karım olub fəğan, ölürəm,
Solubdu gül kimi pəjmürdə cismü can, ölürəm.

*IV iştirakçı:* Qeyd etmək istərdik ki, Nəvvabın Natəvan şeirlərinə yazdığı nəzirələri bu sadalananlardan daha çoxdur. M.M.Nəvvabın poetik yaradıcılığı mövzu etibarilə olduqca zəngin və rəngarəngdir. Onun şeirlərini mövzusuna görə yeddi yerə bölə bilərik: 1) Lirik-aşiqanə şeirlər; 2) Dövrün müxtəlif şəxsiyyətlərinə həsr edilmiş şeirlər və ya mənzum məktublar; 3) Həyatdan, dünyanın vəfasızlığından şikayət ruhlu şeirlər; 4) Riyakar mollaları tənqid edən şeirlər; 5) Beynəlxalq hadisələrə həsr edilmiş şeirlər; 6) Vətənpərvərlik ruhlu şeirlər; 7) Dini mövzulu şeirlər.

Lirik-aşiqanə məzmunlu qəzəllərində şair klassik poeziya ənənələrinin davamçısı kimi çıxış edir. Bu əsərlərdə klassik şeir nümunələrində rast gəldiyimiz obraz və ifadələr əsasən müxtəlif formalarda təkrar olunur. Nəvvabın anlaşıqlı, sadə dillə yazdığı, maraqlı, təravətli obrazlar işlətdiyi lirik şeirləri az deyil. Qəzəllərindən birində, o, sevgilisinə müraciət edərək deyir ki, bahar gözəlliyini görüb özünü sənə oxşadıbdır. Orijinal fikirdir. Çünki adətən gözəli bahara, gül-çiçəklərə bənzədirlər:

Gülşənin güllərilə zinət edib,
Oxşadıbdır özün bahar sənə.

Başqa bir şeirində Mir Möhsün gözəli cazibədarlığına, onu özünə cəzb etdiyinə görə maqnitə bənzədir:

Əcəb miqnat kimi cəzb qıldın əqlimi sərdən,

Əzizim, gözlərim, canım, məgər ahənrübasanmış?

Nəvvab qəzəllərində dəfələrlə lirik qəhrəman-aşiqi eşqi yolunda yandığına görə əfsanəvi səməndər quşuna bənzətmişdir:

Gətirməz yadına Nəvvabı bir oğrun nigahilə,
Deməz eşqində biçarə, Səməndər kimi nar aldı.

Hicrində odlaşan qanadı bu Səməndərin,
Ümmidi-vəslilən edir yüz şəhpər arzu.

*V iştirakçı:* Mir Möhsün Nəvvab dövrünün müxtəlif şairlərinə şeir həsr etmiş, onlara nəzmlə məktublar yazmışdır. Onun şeir həsr etdiyi şəxslər arasında Xurşidbanu Natəvan, Seyid Əzim Şirvani, Həsənəli xan Qaradaği, Mirzə Ələsgər Növrəs, Mirzə Əbdül Şahin, Mənzun, Kəminə, Məşədi Cəfərqulu, Məşədi Hüseyn, Mirzə Cəfər Qasımzadə, Hacı Aslan Aşurov, Hüseyn Əfəndi, Bəhram bəy Fədai, Ərdəbilli Rüstəm xanın qızı Ziba xanım, Göyçə sakini Hacı Əli bəy Əmiraslan Ağazadə və başqaları vardır. Bundan başqa o, "Məclisi-üns", "Məclisi-fəramuşan" ədəbi məclislərinin üzvlərinə müraciətən şeirlər yazmışdır. "Məclisi-üns" ədəbi məclisinin başçısı Xurşidbanu Natəvan övladını itirdikdən, başına bir çox müsibətlər gəldikdən, xəstələndikdən sonra bir müddət evdən çıxmamış, məclisdən uzaqlaşmışdı. Nəvvab böyük hörmət bəslədiyi şairəyə

Əliyyeyi-aliyyə Ağayi-cəlilə,
Neçün əşarınız olmaz hüveyda.
Qamu əşarlar əncamə yetdi,
Sizinkindən əsər olmazmı peyda

bəndi ilə başlanan 7 bəndlik qoşma şəklində məktub göndərmişdir. Natəvan bu məktubdan ruhlanaraq, onun cavabında "Əya, Nəvvab, valayi-süxəndan" misrası ilə başlanan mənzum cavab yazmışdır. Nəvvab daha çox yaxın dostu Həsənəli xan Qaradağiyə mənzum məktublar yazmışdır. Şairin Həsənəli xan xəstə olarkən və öldükdən sonra ona həsr etdiyi şeirləri xüsusilə təsirlidir.

Mir Möhsünün Seyid Əzim Şirvaniyə yazdığı 10 bəndlik mürəbbe şəklində məktubu Seyid Əzimin Abdulla bəy Asiyə yazdığı mənzum məktubla bağlıdır. Məlum olduğu kimi, Natəvan əri knyaz Xasay xan Usmiyev vəfat etdikdən sonra rəiyyətdən olan Seyid Həsənə ərə getdiyinə görə, Abdulla bəy Asi şairəyə biədəb bir həcv yazmışdı. Seyid Əzim Şirvani də Natəvanı müdafiə etmək məqsədilə Abdulla bəy Asiyə bunun cavabında həcv yazmış, bu həcvində Natəvanla bərabər Seyid Həsəni müdafiə etmiş, Abdulla bəyi isə təhqir etmişdi. Bu həcvdə Seyid Əzim Abudlla bəy Asi tərəfindən təhqir edilən Seyid Həsəni həm də özü kimi Peyğəmbər nəslindən olan seyid olduğuna görə müdafiə edirdi. Ona görə adi bir peşə sahibi olduğunu bəhanə gətirib Seyid Həsəni rəiyyət adlandırmaq olmaz, o ali bir nəslin övladıdır. Mir Möhsün Nəvvab Seyid Əzimə mənzum məktubunda deyirdi ki, Seyid Həsənin gözəl xasiyyətini, ali nəslin övladı olduğunu biz də bilirik. Lakin sən bilməlisən ki, bizim kimi Peyğəmbər nəslindən olanlar dilinə biədəb söz gətirməməlidirlər:

Sən əgər ali-Əlisən, hanı qeyrət, de görüm,
Haşimisən, qüreyşisən, hanı qeyrət, de görüm,
Allah, Allah, nədi bir belə qisavət, de görüm,
Sakit ol, samit otur, sən deme peyman, Əzim.

Mir Möhsün, ümumiyyətlə, dövründə geniş yayılmış şairlərin həcvlə məktublaşıb bir-birini təhqir etməsinə çox mənfi münasibət bəsləmişdir. Onun ayrı-ayrı şəxslərə, ədəbi məclis üzvlərinə yazdığı mənzum məktublardan əsas məqsədi qələm əhlini, yaradıcı qüvvələri yaxınlaşdırmaq, birləşdirmək, mehribanlaşdırmaq, həyatda müxtəlif problemlərlə üzləşən adamlara təsəlli vermək idi.

Həyat, ölüm, dünyanın vəfasızlığı məsələləri klassik poeziyanın əksər nümayəndələri kimi Nəvvabı da düşündürmüşdür. Şair şeirlərində oxucularını peyğəmbərlərin övliyaların, padşahların belə tərk etdikləri bu dünyaya etibar etməməyə çağırır:

Bu dəni dünyayə bavər eyləmə, bel bağlama,
Uyma xabi-qəflətə, yol üstə getdi karvan.
Ənbiyavü övliyavü övsiyalar getdilər,
Padşahlar cümləsi xak içrə oldular nihan.

Şair "Dünyanın vəfasızlığı haqqında" adlı 6 bəndlik müəşşər janrında yazdığı şeirində bu mövzuya toxunur, hər kəsə həmişə dünyadan köçəcəyini düşünməyi, tövbə etməyi məsləhət görür:

Tövbə, yarəb, bexəta rahinə getdiklərimə,
Bilib etdiklərimə, bilməyib etdiklərimə.

Cəmiyyətdə hörmətli bir seyid, dindar bir şəxs olan Mir Möhsün ağa şeirlərində dini hörmətdən salan riyakar mollaları, gündə bir təriqət yaradıb islamı içindən parçalayan yalançı şeyxləri tənqid etmişdir. Şair Həsənəli xan Qaradağiyə mənzum məktublarından birində ona zahidlərə inanmamağı məsləhət görür:

Otuz dəfə dad etmişəm sənə mən,
Zahidlərə uymagilən, ağa, sən.
Gecə-gündüz bular ilə düşmüşəm,
Görməmişəm heç birində vəfa mən.

Nəvvabın "Öz xeyrini fikirləşənlərə" adlı 8 bəndlik mürəbbesi ictimai satiranın parlaq nümunəsidir. Şair burada mollaların müxtəlif sahələrdə vurduqları ziyanları, islama təfriqə saldıqlarını, milləti avara qoyduqlarını göstərir. Mömin bir şəxsin qələmindən çıxdığına görə bu sözlər daha inandırıcı səslənir:

Hər nə danışsalar hamısı lafdır yəqin,
Xüdrəyü xüdpəsəndü kəlməbazü pürzi kin,
Avarə qoydu milləti bu rəxnəsazi-din,
Təfriq ümmət içrə salıb etdilər qəmin,
Gəldik cahana haqqı tapaq, molla qoymadı.

*VI iştirakçı:* Qeyd etdiyimiz kimi, M.M.Nəvvab Bakıdan "Əkinçi", Tiflisdən "Ziya", "Kəşkül" qəzetlərini, Hindistandan "Həblül-mətin" məcmuəsini alırdı. Dünyada baş verənlərlə

maraqlanan ədib qəzet və jurnalların köməyi ilə beynəlxalq hadisələrdən xəbərdar olurdu, rəhbərlik etdiyi "Məclisi-fəramuşan" üzvlərinə də bunu məsləhət görürdü. Beynəlxalq hadisələrə həsr etdiyi şeirləri göstərir ki, geniş bilik dairəsinə sahib olan Mir Möhsün XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində get-gedə mürəkkəbləşməkdə olan dünyada baş verənlər barədə əsasən düzgün təsəvvürə malik olmuşdur. Şair Sultan Əbdülhəmidin dövründə Avropa dövlətlərinin yunanlardan istifadə edib Osmanlı dövlətinə hücum etmələrinə, türklər tərəfindən məğlub edilərək geri oturdulmalarına tərcibənd həsr etmişdir. Bu şeirdə türk qoşunlarının Fələstin, Fəsaliyə, Laris, Qlaqos kimi yerləri geri almaları, sərkərdə Əhdəm paşanın və türk əsgərlərinin qəhrəmanlığı vəsf edilir, bu hadisəyə bütün müsəlmanların sevindiyindən danışılır, Sultan Əbdülhəmidə alqışlar deyilir. Hüseyn Əfəndiyə yazdığı mənzum məktubunda da şair eyni hadisələri təsvir etmiş, qələbə sevincini bölüşmüşdür.

Nəvvabın Britaniya imperializminin ifşasına, Mehdi Məhəmməd Əhməd Sudaninin h.1300-cü ildə (m.1882-1883) üsyan edərək Sudan, Bərbəristan və Xartumu tutmasına 24 bəndlik bir mürəbbe həsr etmişdir. Vaqifdən bəhrələnərək "Bax" rədifi ilə yazılmış bu əsəri həmin dövrdə cərəyan edən hadisələri geniş, ətraflı təsvir etdiyinə görə mənzum siyasi oçerk, poema da adlandırmaq olar. Müəllif yazır ki, 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində iki ölkəni bir-birinə qarşı salışdıran Britaniya Afrika və Asiyada çoxlu torpaqları işğal etdi. Lakin yerli xalq Məhəmməd Əhməd Sudaninin başçılığı ilə ayağa qalxaraq torpaqlarını geri almağa başladı.

Şeir Britaniya müstəmləkəçiliyinə qarşı üsyana qalxmış xalq qəhrəmanının mədhi ilə qurtarır:

Mehdinin mədhini, Nəvvab, etgilən sən intişar,
Qıl dua, ta ömrünü mümtədd qılsın kirdigar.
Şəmini, əclalını gün-gündən etsin aşikar.
Qeyrət et, bir baş verən, candan keçən mərdanə bax.

Fikrimizcə, Mir Möhsün Nəvvab poeziyasının ən diqqətəlayiq cəhəti onun əksər şeirlərinin vətənpərvərlik ruhu ilə aşılanmasından ibarətdir. Mir Möhsün ağanın ictimai, ədəbi, elmi fəaliyyətində vətənpərvərlik özünü qabarıq göstərir. O, Şuşada daşbasma mətbəəsi açanda da, "Məclisi-fəramuşan" ədəbi məclisini yaradıb ona başçılıq edəndə də, elmin bir sıra sahələrinə həsr edilmiş əsərlər yazanda da ilk növbədə xalqını, millətini düşünmüşdür. O, məlum səbəblərdən sovet dövründə nəşri qadağan edilmiş "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərində ermənilərin ruslarla əlbirliyni, Tiflis, Təbriz, İrəvan, Naxçıvan, Şuşa, Gəncə və digər yerlərdə törətdikləri cinayətləri açıb göstərmiş, onların fitnəkar siyasətlərini, təxribatlıqlarını ətraflı ifşa etmiş, Azərbaycan xalqının bu qəddar düşmənlərə qarşı qəhrəmanlıq mübarizəsini fəxrlə mədh etmişdir. Xalqı birliyə çağıran ədib göstərir ki, silahsız azərbaycanlılar rusların silahlandırdığı ermənilərə ona görə layiqli cavab verə bildilər ki, böyük təhlükə qarşısında birləşdilər.

1905-1906-cı illər hadisələri zamanı Nəvvab da qələmə sarılmış, xalqın öz torpaqları, varlığı uğrunda qəhrəmanlıq mübarizəsini mədh etmişdir. "İkinci dəfə baş vermiş erməni-müsəlman münaqişəsinə həsr edilmiş şeir" adlı 10 bəndlik müsəddəsdə şair ermənilərin hücumu zamanı qaçıb gizlənmiş Bağat əhlini qorxaqlığa və xəyanətə görə lənətləyir, sonra isə hadisələri təsvir edir: "Ermənilərlə ruslar məscidi yandırırlar. Bunu eşidən İran azərbaycanlıları köməyə gəlmək istəyəndə ruslar mane olurlar. Lakin yerli Qarabağ camaatı özünü itirməyib silaha sarılır, beş gün gecə-gündüz döyüşdən sonra erməniləri darmadağın edir". Şeirin sonunda müəllif qorxub döyüşdən qaçan həmvətənlərini lənətləyir, deyir ki, qeyrətsiz yaşamaqdansa, ölmək yaxşıdır. Nəvvabın eyni adlı 26 bəndlik "Bax" rədifli mürəbbesi döyüş meydanlarından oçerk, poema xarakteri daşıyır. Bu şeirdə müəllif ruslarla ermənilərin birləşərək böyük bir qoşunla hücum etdiyini, qarabağlıların

ayağa qalxıb onların qarşısını aldığını təsvir edir, bu döyüşlərin İbrahim bəy, Xacə Mircan kimi qəhrəmanlarını alqışlayır. "Şuşa qalasında baş vermiş erməni-müsəlman münaqişəsi münasibətilə" adlı 20 bəndlik mürəbbesində şair şəhərə ermənilərin hücum etdiklərindən, çoxlu günahsız adamları öldürdüklərindən, qətl-qarətlər etdiklərindən, evləri yandırdıqlarından, yerli azərbaycanlıların birləşərək onları darmadağın etmələrindən, bunu görən rusların hər iki tərəfi sülhə dəvət etmələrindən bəhs edir, təəssüflə deyir ki, belə vicdansız düşmənlə barışmaq lazım deyildi. Şeirin sonunda Nəvvab xalqı birliyə, qeyrətə çağırır:

Müsləmana təəssüb vacibdi, Nəvvabi-zar,
Böylə fərman veribdir o rəsuli-tacidar,
Həmiyyəti olanı hifz eləsin Kirdgar,
Qeyrətsiz əşxasla izn yox danışmağa.

Mir Möhsün "Millətin birləşməsi haqqında" adlı 6 bəndlik müxəmməs-tərcibəndində 1905-1906-cı illərdə başına gələn faciələrdən sonra xalqını bütün hərc-mərclikləri unudaraq birləşməyə çağırır. Şairə görə, bu, mlilətin qarşısında duran ən böyük vəzifədir.

İttifaq edib eyləyin səvab,
İttifaq edin manəndi-dəvab,
Doğru yoldur ki, göstərir Nəvvab,
Ayılın, qardaş, xabi-qəflətdən
Əl çəkin bir dəm bu cəhalətdən.

Mir Möhsün Nəvvabın şeirləri onun geniş dünya görüşünə malik ziyalı, xalqı birliyə çağıran, həm vətənlərinə doğru yol göstərən milli şair olduğunu sübut edir.

Vətənpərvər şair Mir Möhsün Nəvvabın 185 illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri *də "Klassik irsimiz – Nəvvab"* adlı *ədəbi-bədii gecədir*. Gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, bəstəkar və müğənnilər, oxucular, məktəblilər və ümumilikdə vətənə, yurda, sevgiyə, məhəbbətə dəyər verənlər

toplaşırlar. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına Mir Möhsün Nəvvabın həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur. Gözəl ovqatdan sonra aparıcılar səhnəyə yaxınlaşırlar.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, poeziya vurğunları, bu gözəl şeirli, nəğməli tədbirə xoş gəlmisiniz. Görkəmli şair Mir Möhsün Nəvvabın 185 illik yubileyi münasibətilə keçirilən tədbirdə sizləri xoş gördük. Dahi şairin qələmindən süzülən inci damlaları nur olub qəlbinizə axsın, dəyərli iştirakçılar! Azərbaycan ədəbiyyatının inkişafında və zənginləşməsində XIX əsr Qarabağ ədəbi mühitinin misilsiz rolu olmuşdur. Bu zəngin mədəniyyət beşiyində çoxlu şair, musiqiçi, tarixçi və gələcək nəsillərə əsərlərini ərmağan qoyub getmiş neçə-neçə sənət dühası yetişmişdir. Bunlardan biri də ensiklopedik biliyə malik şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi, Azərbaycanın quzeyində kitab çapının bünövrəsini qoyanlardan biri olmuş Mir Möhsün Nəvvab Hacı Mir Əhməd oğlu Ağamirzədir. Təhsilini mədrəsədə alan Nəvvab fars, ərəb dillərini mükəmməl öyrənmiş, sonra isə Molla Abbas Cavanşir Sarıcalı adlı bir müəllimədən dərs almışdır. Fitri istedadı, qabiliyyəti, zəhmətkeşliyi sayəsində riyaziyyat, kimya, nücum, (Astronomiya) coğrafiya, tarix, musiqi, fiqh və sair elmlərə dərindən yiyələnmişdir. Müəllimliklə məşğul olan M.M.Möhsün Nəvvab təşkil etdiyi yeni üsullü məktəbdə şagirdlər üçün dərsliklər yazmış, fars dilindən dərs vəsaiti kimi istifadə olunan kitabları tərcümə etmişdir.

*II aparıcı:* Müxtəlif elmlərə bələd və açıqfikirli bir ziyalı olduğu üçün Şuşa və ətrafdan şairlər, musiqiçilər onun mənzilinə toplaşar, yeni şeirlərini oxuyar, musiqiyə qulaq asarmışlar. 1872-ci ildə “Məclisi-üns” Natəvanın sarayına köçdükdən bir az sonra Nəvvabın təşəbbüsü ilə “Məclisi fəramuşan” (“Unudulmuşların məclisi”) təşkil edilmişdir. Üzvləri isə

“Məclisi-üns” ün unutduğu şairlər olmuşdur. Bu məclisdə dövrün tanınmış şairləri ilə yanaşı, Qarabağın məşhur xanəndə və sazəndələri də iştirak etmişlər. Məclisin məşğələləri qışda Mir Möhsün Nəvvabın mənzilində, yay aylarında isə Cıdır düzündəki “Ağzıyastı kaha” deyilən yerdən keçirilmişdir. Məclis üzvlərini dünya hadisələri və mədəni yenilkilərlə tanış etmək üçün Nəvvab Bakıdan “Əkinçi”, Tiflisdən “Ziya” və “Kəşkül” qəzetlərini, Hindistandan fars dilində nəşr olunan “Həbbül-mətin” məcmuəsini alırdı.

*I aparıcı:* 1903-cü ildə Nəvvabın təşəbbüsü ilə qiraətxana-kitabxana açılan zaman artıq “Məclisi fəramuşan” ın fəaliyyəti zəifləmişdi. Qiraətxanaya şairin oğlu Miribrahim (Miriş Ağa) rəhbərlik edirdi. Nəvvabın ən böyük xidməti isə bir-birindən qiymətli elmi, tarixi, bədii əsərləridir.

XIX əsrin sonunda onun təsis etdiyi şəxsi mətbəənin Azərbaycan kitab mədəniyyətinin inkişafında böyük rolu olmuşdur. Həmin mətbəədə o öz əsərlərindən başqa, digər şairlərin də əsərlərini çap etmişdir. M.M. Nəvvabın külliyyatı tam halda bugünki günədək hələ çap olunmamışdır. Ancaq əsərlərindən bəziləri ayrı-ayrı dövrlərdə nəşr olunmuşdur.

*II aparıcı:* Son dövrlərdə Mir Möhsün Nəvvab yaradıcılığına diqqət artmış, onun bir çox əsərləri nəşr olunmuş, yaradıcılığı ilə əlaqədar elmi-tədqiqat əsərləri yazılmışdır.

Demək olar ki, Nəvvabın elmi, ictimai fəaliyyəti çoxsahəli, zəngin olduğu kimi, bədii yaradıcılığı da geniş, rəngarəng olmuşdur. 86 il maraqlı ömür yolu (1833-1919) keçmiş Mir Möhsün Nəvvab bir-birindən dəyərli, gözəl əsərlər yazaraq mədəniyyət tariximizə töhfə etməsi ilə bərabər, klassik ədəbiyyatımızın parlaq nümunəsi olub, oxuculara ilk dəfə təqdim olunan “Divan” ı ilə də Azərbaycan ədəbiyyatı tarixində ən yüksək yerlərdən birini tutur.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Seçilmiş əsərləri : Poeziya - Bakı : Şərq-Qərb, 2006. - 216 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Nəsihətnamə. - Bakı : Araz, 2005. - 56 s.

***Kitablarda***

Qəzəllər // XIX əsr Azərbaycan ədəbiyyatı (Poeziya). II clddə. - Bakı : Nurlar, 2009. - C. I. - S. 658-660.

Qəzəllər ; Mürəbbelər ; Növhə // XIX əsr Azərbaycan şeiri antologiyası. - Bakı : Şərq-Qərb, 2005. - S. 229-235.

***Haqqında***

***Kitablarda***

**Qacar Ç.** Azərbaycanın sonuncu orta əsr ensiklopediyaçılarından biri : Qarabağlı Mir Möhsün Nəvvab // Azərbaycan qədim və orta əsrlərdə. Görkəmli şəxsiyyətlər. - Bakı : OKA ofset, 2012. - S. 425-428.

***Dövri mətbuatda***

**Abbaslı T.** Müəllimsiz-təlimsiz Alim : dahi sənətkarlar yetirmiş Şuşamızın böyük elm-sənətkarı - Mir Möhsün Nəvvab // Mədəniyyət. - 2017. - 29 sentyabr. - № 76. - S. 12.

**Aslanlı M. (Huntürk)** Mir Möhsün Nəvvab Fenomeni // Ulduz. - 2013. - № 1. - S. 69-73.

**Əliyev Z.** Mir Möhsün Nəvvabın sənət dünyası // Ədəbiyyat qəzeti. - 2016. - 12 mart. - № 10. - S. 29.

**Əliyev Z.** Mir Möhsün Nəvvabın yaradıcılığında miniatür ənənələri // Mədəniyyət.az. - 2018. - № 321. - S. 68-70.

**Hacıyev Q.** Təhsil, elm və mədəniyyətin beşiyi : tarix olduğu kimi // Azərbaycan : qəzet. - 2015. - 12 fevral. - № 33. - S. 11.

**Kərimov P.** Mir Möhsün Nəvvab poeziyasının səciyyəvi xüsusiyyətləri // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2017. - № 1. - S. 21-27.

# Gözəllik və bilik aşiqi Nəvvab

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 59
Çapa imzalanmışdır: 17.12.2018
Tirajı:100
Pulsuz